1 Noyabr Kənd Təsərrüfatı İşçiləri Günüdür

# Bolluq yaradanlar

**Azərbaycanın qarşıdakı 10 il ərzində "Qüdrətli dövlət və yüksək rifah cəmiyyəti"nə çevrilmək üçün mövcud sosial-iqtisadi modelinin məzmunu və strukturu əhəmiyyətli dərəcədə yenilənəcək. Bu, aqrar sektorda da ciddi nəzərə çarpacaq və proqnozlara əsasən, kənd təsərrüfatında müasir texnologiyaların tətbiqi ilə məhsuldarlıq artacaq, həmçinin yeni iş yerləri açılacaq. Dövlətin stimullaşdırıcı dəstəyi ilə kənd təsərrüfatının qlobal dəyər zəncirinə dayanıqlı inteqrasiyası təmin olunacaq, bu sahədə inkişafı zəruri edən mühüm infrastruktur sistemi yaradılacaq. Bundan başqa, müxtəlif sənaye parkları və məhəllələri, turizm və rekreasiya zonaları salınacaq, eyni zamanda, istehsal olunan məhsul və xidmətlərin xarici bazarlara ixracı stimullaşdırılacaq. Nəticədə, 2022–2026-cı illərdə kənd təsərrüfatı hər il orta hesabla 4 faiz artacaq.**



Belə bir şəraiti isə respublikamızda son illər ərzində kənd təsərrüfatının modernləşdirilməsi, aqrar sektorda mövcud problemlərin həllinə sistemli və kompleks yanaşılması istiqamətlərində mühüm uğurlar şərtləndirib. Prezident İlham Əliyev tərəfindən aqrar islahatların müasir mərhələsi ilə bağlı qəbul olunan qərarlar, bu sahənin institusional, iqtisadi və texnoloji inkişaf mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində kompleks layihələrin icrası kənd təsərrüfatının keyfiyyətcə yeni inkişaf dövrünə keçməsini gerçəkləşdirib.

Bütün bu tədbirlərin nəticəsində isə yerli istehsal potensialı güclənib və ərzaq məhsullarının rəqabət qabiliyyətliliyi artıb, həmçinin ərzaq təhlükəsizliyinin dayanıqlılığının təmin olunması, habelə əsas ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəlməsi reallaşıb.

Azərbaycanın ərzaq təhlükəsizliyi sahəsindəki nailiyyətləri davamlı olaraq nüfuzlu beynəlxalq qurumların hesabatlarında da əksini tapır. Belə ki, Qlobal Ərzaq Təhlükəsizliyi İndeksi (The Global Food Security Index) üzrə hesabata əsasən, respublikamızın ümumi ərzaq təhlükəsizliyi indeksində ardıcıl olaraq yüksəlmə müşahidə olunur. Hazırda da ərzaq təhlükəsizliyinin dayanıqlılığının gücləndirilməsi üçün yeni institusional mexanizmlər yaradılır.

Son illərdə kənd təsərrüfatında müasir texnologiyaların tətbiqi ilə məhsuldarlıq artıb, dövlətin stimullaşdırıcı dəstəyi ilə bu sahənin qlobal dəyər zəncirinə dayanıqlı inteqrasiyası təmin olunub. Hökumət aqrar sektor, sənaye və xidmət sahələrinin inkişafını dəstəkləyən infrastrukturun yaradılmasında fəal iştirak edib. Bütün bunlarla bərabər, müxtəlif aqroparklar yaradılıb, istehsal olunan məhsul və xidmətlərin xarici bazarlara ixracı stimullaşdırılıb. Burada onu da qeyd edək ki, kənd təsərrüfatı məhsullarının ixracı üzrə prosedurların sadələşdirilməsi, ixracyönümlü aqrar istehsal mallarına gömrük və vergi güzəştlərinin tətbiqinin sadələşdirilməsi də mühüm rol oynayıb.

"Xalq qəzeti"